**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№295/3** **20 dekabr 2017-ci il**

**Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik hesabatın hazırlanması barədə**

Palatanın Şurası tərəfindən 2013-cü il 5 dekabr tarixində təsdiq edilmiş "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarının pozulması barədə illik hesabatın hazırlanmasına dair TƏLİMAT"ın tələblərinə və Palatanın 2017-ci il üzrə iş planının 3.5-ci və Palata Şurasının 2017-ci il üzrə iş planının 21-ci "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik hesabatın hazırlanması" bəndlərinin icrası ilə əlaqədar Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi tərəfindən hazırlanmış illik hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik Hesabat" nəzərə alınsın (əlavə olunur).
2. Palatanın struktur bölmələrinə və Palatanın şurası yanında aidiyyatı komitələrə tapşırılsın ki, sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinin audit standartlarına uyğunluğu yoxlanılarkən və onların barəsində Palataya daxil olmuş məlumatlar, müraciətlər üzrə araşdırma aparılarkən etik davranış qaydalarına riayət olunması vəziyyətini daim diqqətdə saxlasınlar.
3. Auditor təşkilatlarının rəhbərlərindən və sərbəst auditorlardan tələb olunsun ki, öz fəaliyyətlərində Peşə etikasının tələblərinə ciddi riayət etsinlər.
4. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və hesabatın mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**